# TƏLƏBƏLƏR HƏRBİ HİSSƏDƏ

Gəncə Dövlət Universitetinin bir qrup müəllim və tələbəsi Silahlı Qüvvələr Günü münasibətilə şəhərdə yerləşən "N" saylı hərbi hissədə olmuşdur. Görüşdə Universitetin humanitar məsələlər üzrə prorektoru Asif Cavadov hərbi hissənin komandanlığını və əsgərləri bu əziz bayram münasibəti ilə təbrik etmişdir. O, Silahlı Qüvvələrin şanlı tarixindən danışaraq qeyd etmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli fərmanına əsasən 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan edilmişdir.

Artıq 17-ci ildir ki, ölkəmizdə ümumxalq bayramı kimi təntənəli şəkildə qeyd edilən həmin günün müəllifi müasir Azərbaycan Ordusunun qurucusu ulu öndər Heydər Əliyevdir.



Məlumdur ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə general Səməd bəy Mehmandarovun rəhbərliyi ilə ilk əlahiddə Azərbaycan korpusu 26 iyunda yaradılmışdır. Ulu öndərin 1998-ci il mayın 22-də imzaladığı fərmanla bu tarixi gün Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi. Ümummilli lider Heydər Əliyev bu fərmanı ilə tarixi həqiqətin və Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası istiqamətində çox gərəkli bir addım atdı.

Gəncə Dövlət Universitetinin çoxminli kollektivi də ordumuzun bugünkü gücü və qüdrətilə fəxr edir. Ona görə də kollektivin təbrikini gətirmiş tələbələrimiz belə bir sevincli gündə əsgərlərimizlə birgə şənlənməyi özlərinə borc bilmişlər. Konsert proqramı universitetin tələbə şurasının sədri Əfsanə Mövlayevanın "Vətən sevgisi" şeiri ilə başladı. Sərxan Məmmədovun və Sərxan Qasımovun ifa etdiyi mahnılar, Ruslan Xudaverdiyevin sazda çaldığı havalar, Eşqin Ocaqverdiyevin qarmonda səsləndirdiyi oynaq musiqi nömrələri tamaşaçıların rəğbətini qazandı.

Görüşün sonunda hərbi hissənin komandanlığı tələbələrin sevincini alqışlayaraq onların bayramı əsgərlərlə birgə keçirmələrindən hədsiz razı qaldığını bildirdilər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**